# Şuşa bütün zamanlarda gözəllik və məğrurluq təcəssümü olub

**Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi özündə yaşadan, Azərbaycanın unikal mədəniyyət mərkəzi, milli memarlığımızın və orta əsr şəhərsalma sənətimizin qiymətli abidəsi, Qarabağ xanlığının mərkəzi olan Şuşa xalqımızın həyatında hər zaman özünəməxsus rol oynamışdır.**

Təxminən üç əsrlik yaşı olan Azərbaycanın alınmaz qalası, əvəzsiz sənət nümunələri olan Xan, Qaxal mağaraları, Xurşudbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair-rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahimxəlil xanın və Qara Böyükxanımın sarayları, Gəncə qapısı, Gövhər Ağa məscidi, əsas ticarət mərkəzi olan Rastabazar, Daşaltı dərəsi, Cıdır düzü, möhtəşəm qala divarları, memarlıq inciləri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə yadigar qalmışdır.

**(davamı 5-ci səhifədə)**



Respublika.- 15 yanvar.- 2022- ci il.- S. 1.

# Şuşa bütün zamanlarda gözəllik və məğrurluq təcəssümü olub

(əvvəli 1-ci səhifədə)

300 tarixi, o cümlədən respublika və dünya miqyaslı 23 abidəsi, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa edilmiş qala divarı olan Şuşada abidələrin çoxu XVIII-XIX əsrlərə aid edilir. Burada hər bir ev, hər bir küçə, əzəmətli qala divarları, məscidlər keçmişimizdən miras qalan tarixi salnamədir.

Azərbaycanın elm, mədəniyyət mərkəzi olan Şuşada hələ 1881-ci ildə 6 sinifli Şuşa Realnı Məktəbinin əsası qoyulmuş, hazırlıq və üç əsas sinifdən ibarət olan məktəbə ilk dəfə 159 şagird qəbul edilmişdi. Məktəbdə əsas riyaziyyat və fizika kursları, təbiətşünaslıq, rəsm, rəsmxət və şəriət dərsləri keçirilir, alman və fransız dilləri tədris olunurdu. Qafqaz orta təhsil müəssisələri arasında nümunəvi tədris müəssisələrindən hesab olunan Şuşa Realnı Məktəbində təhsil alan qarabağlı gənclərin bir hissəsi sonralar Rusiyanın və Avropanın ali məktəblərinə daxil olmuş və oranı bitirdikdən sonra xalq maarifi və məktəb, elm və mədəniyyət, xalq təsərrüfatı və iqtisadiyyatın, sənayenin müxtəlif sahələrində xidmət göstərmişlər. Bu təhsil ocağı Azərbaycan elminə, mədəniyyətinə Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Xan Şuşinski kimi onlarla görkəmli şəxsiyyətlər bəxş etmişdir.

Mənəvi pasportu olan Daşaltı dərəsi, igidlər oylağı Cıdır düzü, saysız-hesabsız memarlıq inciləri Azərbaycan muğamının beşiyi sayılan Şuşanı təkcə ölkəmizdə deyil, bütün dünyada qədim mədəniyyət mərkəzlərindən biri kimi tanıtmışdı. "Şərqin konservatoriyası" adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərinin vətənidir.

Şuşa yalnız qədim tarixi, zəngin mədəniyyəti, strateji əhəmiyyəti, mənəvi önəmi ilə deyil, həm də öz təbiəti, qeyri-adi gözəlliyi ilə hər zaman seçilmişdi. Şəhər hələ çox illər qabaq havasının tərkibi, təmizliyi, saflığı və müalicəvi əhəmiyyəti baxımından əvəzolunmaz kurort şəhəri kimi tanınmış, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da öz səfalı yerləri, istirahət guşələri ilə məşhurlaşmışdı. 1976-cı ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Soveti "Şuşa şəhərində kurort kompleksinin sonrakı inkişafı üzrə tədbirlər haqqında" qərar qəbul etmiş, Şuşanın abad şəhərə çevrilməsi üçün vacib olan müvafiq infrastruktur yaradılmış, kurort şəhəri kimi inkişafı təmin olunmuşdu. Şəhərdə köhnə yöndəmsiz tikililər sökülərək yerində çoxmərtəbəli yaşayış və inzibati binalar, sanatoriya və digər kurort müəssisələri tikilmişdi. Kurort təsərrüfatı, kurort ticarəti idarəsi yaradıldıqdan sonra isə Şuşa ümumittifaq əhəmiyyətli kurort şəhəri kimi inkişaf etməyə başlamışdı. 1992-ci ilə qədər bura Şuşanın müalicəvi əhəmiyyətli suyundan, havasından şəfa tapmaq üçün dünyanın hər yerindən minlərlə insan gəlirdi. Tarixi şəhərimiz, mədəniyyət paytaxtımız olan Şuşa səfalı təbiəti, göz oxşayan yaşıl düzləri, ormanları, ceyran-cüyür mələşən çölləri, ekoloji təmizliyi ilə də turistləri cəlb edirdi.

Azərbaycanın mədəniyyət məbədi Şuşa qədim tarixi abidədir. Qarabağın ən dilbər guşəsi sayılan, gözəlliyi və nəcibliyi hər kəsi heyran qoyan, Daşaltı çayının üstündə, Ağzıyastı kahanın yerləşdiyi Üçmıx dağının düz altında, çeşmə ətrafında yerləşən Cıdır düzü təbiətin Şuşaya bəxş etdiyi əsrarəngiz gözəlliyi ilə insanı valeh edir, ruhunu sözün həqiqi mənasında ovsunlayır, onun qəlbini və düşüncəsini fəth edir.

XVIII əsrin görkəmli Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqif Şuşada yaşayıb yaratmışdır. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı milli ədəbiyyatımızda, tariximizdə, mədəniyyətimizdə böyük xidmətləri olan Vaqif irsinə dərin hörmət və ehtiramın təzahürü idi. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi.

Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı. Ötən il avqust ayının 30-da dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi, yaradıcılığında özünəməxsus realist ədəbi-estetik mövqeyi ilə seçilən Molla Pənah Vaqif irsinə işıq salan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olundu. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra Qarabağ tarixi, Qarabağda yaranan şeir, musiqi sənəti yenidən yaşamaq hüququ aldı. Molla Pənah Vaqifin məqbərəsinin yenidən açıldığı, 39 illik tarixi olan Vaqif Poeziya Günlərinin yenidən başladığı gün isə ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycanın söz, şeir bayramına çevrildi.

İlk dəfə məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə Şuşada Cıdır düzündə keçirilməyə başlayan "Xarıbülbül" Beynəlxalq Festivalı sonralar hər ilin may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan, SSRİ ölkələrinin iştirakı ilə keçirilmiş və təkcə Azərbaycanda deyil, bütün dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunmuşdu. 1992-ci ildə 4-cü "Xarıbülbül" festivalı mayın 15-də keçirilməli, burada dünyanın 30-dan çox ölkəsindən 500 nəfər iştirak etməli idi. Lakin festival, Qarabağ müharibəsinin başlaması və Şuşa şəhərinin mayın 8-də erməni silahlı qüvvələri tərəfindən ələ keçirilməsinə görə ləğv edilmişdi.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq müzəffər ordumuz noyabrın 8-də Azərbaycanın Şuşa şəhərini erməni işğalçılarından azad etdi. Xalqımızın həsrətlə gözlədiyi gün gəlib çatdı. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı elan edildi. Bu Sərəncamla 2021-ci il mayın 12-si və 13-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalı düzənləndi. Festivalda çıxış edən Prezident İlham Əliyev dedi: "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir... 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır".

Bəli, Şuşa uzun illər dillərdə dastan olacaq. Qəhrəmanlığı, məğrurluğu, möhtəşəmliyi ilə...



XVIII əsrin görkəmli Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqif Şuşada yaşayıb yaratmışdır. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı milli ədəbiyyatımızda, tariximizdə, mədəniyyətimizdə böyük xidmətləri olan Vaqif irsinə dərin hörmət və ehtiramın təzahürü idi. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 15 yanvar.- 2022- ci il.- S. 5.